c. 135-160.

*E.C.Bağırova, L.Ə.Məlikova, E.İ.Xaliyeva*

*Səhiyyə Nazirliyinin Elmi-tədqiqat Mamalıq və Ginekologiya institutu*

## ELEKTROMAQNİT DALĞALARI VƏ ONLARIN ƏTRAF MÜHİTƏ TƏSİRİ

Hal-hazırda canlı aləmə teretogen təsir göstərə bilən 40 amil mövcuddur. Onlardan biri müxtəlif mənbələrin yaratdığı elektromaqnit sahəsidir (EMS). Elm-texnikanın sənayeyə və məişətə şamil edilməsi bu mənbələrin siyahısını gündən-günə genişləndirir. Təbii haldır ki, insanlar müxtəlif zaman fasilələri ilə və ya daimi olaraq bu EMS-nin təsirinə məruz qalmağa məcbur olurlar. 1990-cı illərdən başlayaraq tədqiqatçılar EMS-i ilə təmasda olan insanların sağlamlıq göstəriciləri üzərində araşdırmalar aparmışlar. Onlar belə nəticələrə gəlmişlər ki, adı çəkilən sahənin təsiri altında olan əhali arasında immun sisteminin zəifliyi, ürək-damar və sinir sistemi xəstəlikləri, onkoloji xəstəliklər, qan xəstəlikləri geniş yayılmışdır. Ancaq bu çoxsaylı işlərin heç birində elektromaqnit sahəsi, ərazidə yaşayan əhali arasında yayılmış xəstəliklərin birbaşa səbəbi kimi göstərilməmişdir. Müəlliflər bu sahədə aparılan işlərin





genişləndirilməsini, izalə olunmuş model orqanizmlərdən geniş istifadə olunmasını tövsiyə etmişlər.

Respublikamızın ərazisində ən qüvvətli EMS-nin mənbəyi 1985-ci ildə tikilmiş Radiolakasiya stansiyasıdır (RLS). RLS Böyük Qafqaz dağları silsiləsinin şimal-şərqində yerləşən Qəbələ rayonu ərazisində, dəniz səviyyəsindən 4000-3500 m. yüksəklikdə yerləşmişdir, tutduğu sahə 210 ha-dır. Bu stansiya sovetlər dövründə istifadəyə buraxılmış strateji əhəmiyyəti olan obyektdir. Onun şuasının istiqaməti Hind okeanı regionunun müşahidə etməyə yönəldilmişdir. İstifadəyə buraxılmasından 20-21 il keçməsinə baxmayaraq Qəbələ RLS öz gücünə görə dünyada aparıcı yerlərdən birini tutur. Azərbaycanın bir çox rayonları RLS-in yaratdığı AMS-nin təsir dairəsində yerləşir. Qurğuya ən yaxın yerləşəni isə Qəbələ və İsmayıllı rayonlarıdır. Ağdaş, Göyçay, Ağsu və Azərbaycanın bu şüa istiqamətində olan bəzi digər rayonları da qismən RLS-in təsir dairəsinə düşür.

Dövlət və qeyri dövlət təşkilatları tərəfindən aparılan tədqiqatların nəticəsinə əsaslanaraq, Qəbələ RLS-nin ətraf mühitə göstərdiyi təsiri belə ifadə etmək olar:

- RLS-in istiqamətləndirdiyi şüalar buludlarda əks olunaraq geri qayıda bilir, bu da öz növbəsində ətraf mühit üçün təhlükə yaradır.
- yüksək intensivlikli EMS-i hava və havada olan digər hissəciklərin molekullarını ionlaşdırmaq qabiliyyətinə malikdir ki, bu da öz növbəsində sərbəst radikallar əmələ gətirərək bioorqanizmlər üçün təhlükə yaradır.
- RLS-in rotorunu soyutmaq üçün istifadə olunan freon ətraf mühit üçün zərərli hesab olunan kimyəvi maddədir.
- RLS-in rotorunun su ilə soyudulması isə ətrafda olan meşələrin qurulmasına gətirir (qrunt sularının qüvvətli motorlarla sovurulması, ağacların kök vasitəsi ilə qidalanmasının çətinləşməsi və ətraf meşələrin qurumasına səbəb olur).
- RLS-in rotorunu soyudulandan sonra isti suyun çaylara axıdılması, ətraf mühitə temperatur balansının pozulmasına, bitki və heyvan aləminin tələf olmasına səbəb olur.

Yerli ekspertlər Qəbələ RLS-nin ətraf mühitlə təmasından ortaya çıxan problemlərin araşdırılması sahəsində tədqiqatların aparılmasının davam etdiyi barədə məlumat vermişlər.

RLS-in yerləşdiyi Qəbələ rayonunda təqribən 84.000 əhali yaşayır. Onlardan 44.000 qadınlardır. Fertil yaşlı qadınların sayı isə 23.000 bərabərdir. RLS-in təsir dairəsində olan kəndlərin sayı 15-dir. Rayon əhalisinin 16,7% bu kəndlərdə yaşayır. Rayon əhalisi ən çox əkinçilik, qismən də maldarlıqla məşğul olurlar. Rayon ərazisində mühüm sənaye obyekti yoxdur.

RLS-ə ən yaxın olan İsmayıllı rayonunda isə təqribən 74.624 nəfər əhali yaşayır. Bu rayondan 25 kənd RLS-in təsir dairəsinə düşür.

RLS-in təsir dairəsində yaşayan əhalidə aşkar olunan qüsurların molekulyar – genetik aspektini və klinik diaqnoz olunan irsi xəstəliklərin xüsusiyyətini nəzərə almaqla 5 kənddə genetik monitorinq keçirilmişdir.

EM şüaları asanlıqla beyin və başqa orqanlara daxil olur, əsəb sistemini funksiyalarını pozur. Anket vasitəsi ilə aparılan nəticələr göstərdi ki, spontan abortların sayı artır, hamiləliyin inkişafdan qalması halları, RLS-in əhatə dairəsində olan hamiləlik 20% artıqdır. Bu isə öz növbəsində gələcək metodlarda yüksək risk qrupunu təşkil edəcək.


## РЕЗЮМЕ

### ЭМ ВОЛНЫ И ЕГО ДЕЙСТВИЕ НА ОКРУЖАЮЩУЮ СРЕДУ

Э.Д.Багирова, Л.А.Меликова, Э.И.Халиева
НИИ акушерства и гинекологии МЗ Азербайджанской Республики

Воздействие импульсно-моделированного ЭМП диапазона, легко проникающего в мозг и другие внутренние органы человека, нарушает физиологию высшей нервной деятельности, висцеральных и репродуктивных систем: мочеполовой и эндокринной систем.

На основе проведенных статанализов, опроса и анкетирования, изучения болезней населения в зоне НАЦ Габала обнаружено значительное увеличение спонтанных абортов и неразвивающихся беременностей, возрастание частоты различных врожденных пороков развития, причем их частота на 20% больше в населенных пунктах зоны прямой видимости НАЦ Габала.


## ƏDƏBİYYAT


1. Molecular bassis ov environmentally indused defect. Annu.Rev.Parmocol. Toxicol. 2002. 42: 181 – 208 coryrigtt©by Annual Reviews.
2. Savits D.A. Ananth. S.v., Bioelectromagneties. 1994, (5(3); 271-3).
3. Fitzsimmons R.L. and oters, Departament ov Medijine, Loma Linda University, Coliforniya., 1994 növ, 55 (5); 376-80.
4. Radition sofety problems in the caspian region, NATO-OTAH. NATO Advance Research Workshop, 11-14, September 2003, Baku, Azerbaijan, pp.
5. Institut of Raiotion Problems, NAS of Azerbaijan, 2003, Baku